

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

21 oktyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 40 (3553)


# FÜZULİDƏN BAŞLAYAN ZƏFƏR YOLU




Oktyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda səfərdə olublar. Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyan dövlətimizin başçısı ictimaiyyət qarşısında çıxış edib.

Görüş zamanı 44 günlük müharibədə Füzulinin azad olunmasının əhəmiyyətindən danışan ölkəmizin rəhbəri Zəfərə gedən yolun məhz bu rayondan başladığını bildirib. Strateji baxımından mühüm əhəmiyyət kəsb edən Füzulinin azad olunmasının ordumuzun Şuşa istiqamətində hərəkət etməsi üçün geniş imkanlar açdığını deyən Prezident İlham Əliyev düşmənin otuz il ərzində qurduğu, möhkəmləndirdiyi istehkamların yarılmasının, keçilməsinin xalqımızın bir daha böyük qəhrəmanlığının, fədakarlığının göstəricisi olduğunu qeyd edib.

Dövlətimizin başçısı məhz Füzulinin azad olunmasından sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldığını da diqqətə çatdırıb.

Tarixə möhürünü vuran qələbəmizdən sonra ötən bir il ərzində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq, bərpa işlərinin həyata keçirilməsi, o cümlədən qısa müddət ərzində Füzuli rayonunda Beynəlxalq Hava Limanının inşası, Füzulidən Şuşaya elektrik xətlərinin, eləcə də Zəfər yolunun çəkilməsi ölkəmizin iqtisadi və siyasi potensialının göstəricisidir.

Çıxış zamanı Prezident İlham Əliyev görülən işlərin keçmiş köçkünlərin qısa zaman kəsiyində doğma torpaqlarına qaytarmaq məqsədi daşıdığını bildirib.

“Bu gün Dövlətyarlı kəndinin inkişaf konsepsiyası təsdiq edildi, təməli qoyuldu. “Ağıllı kənd” konsepsiyası əsasında Dövlətyarlı kəndində böyük yaşayış məntəqəsi yaradılacaq. Beş kəndi birləşdirən bu layihə, ümid edirəm ki, gələn ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450 evin, sonra isə əlavə 300 evin tikintisi nəzərdə tutulur və bu, Füzuli rayonunda birinci yaradılacaq yaşayış mərkəzi olacaqdır”,-deyən ölkəmizin rəhbəri qısa müddət ərzində Füzuli şəhərinin də, rayonun kəndlərinin də çiçəklənəcəyini qeyd edib.

Quruculuq və bərpa işlərinin böyük vəsaitlər hesabına reallaşdığını, buna baxmayaraq ölkə iqtisadiyyatında pandemiya böhranından sonra doqquz ay ərzində təxminən 5 faiz, sənayedə, həmçinin qeyri-neft sektorunda təxminən 20 faiz artımın müşahidə olunduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bu böyük və geniş miqyaslı işlərin görülməsi üçün heç kimdən yardım alınmadığını, hər bir işin imkanlarımız çərçivəsində həyata keçirildiyini vurğulayıb.

Görüşün sonunda ölkəmizin rəhbəri bir daha 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış köçkünlərin qısa müddət ərzində öz doğma torpaqlarına qayıdacaqlarına əminliyini ifadə edib.




# ONLAR BİZƏ QƏLƏBƏ BƏXŞ ETDİLƏR

## *Paytaxtda və bölgələrdə anım mərasimləri keçirilir*






**Tarixə 44 günlük savaş kimi düşən Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan DİN Daxili Qoşunların hərbi qulluqçularının paytaxtda və bölgələrdə anım mərasimləri keçirilir.**

Şəhid hərbi qulluqçu Asif Talıblının ildönümü münasibətilə DİN-in, eləcə də Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları şəhidin məzarını ziyarət edib, ailəsi ilə görüşüblər. Mərasim iştirakçıları şəhidin məzarı üzərinə tər çiçəklər düzərək Vətən uğrunda canlarından keçənlərin əziz xatirəsinin daim qəlblərdə yaşayacağını, onların döyüş meydanında göstərdikləri şücaətin gənc nəsillər üçün örnək olduğunu bildiriblər.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə çavuş A.Talıblı ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

Ucar rayonunda da Vətən müharibəsi şəhidinin anım mərasimi keçirilib. DİN və Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları şəhid hərbi qulluqçu, gizir Vüqar Ələkbərovun məzarını ziyarət edərək önünə əklil qoyub, üzərinə tər çiçəklər düzüblər.

Mərasim iştirakçıları onun ömür yolundan, eləcə də Vətən müharibəsində göstərdiyi igidliklərdən danışıblar.

Dövlət başçısının müvafiq sərəncamları ilə gizir V.Ələkbərov ölümündən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan polis əməkdaşı, “Azərbaycanın Milli Qəhrəmanı” Səfəralı Məmmədovun doğum günündə Masallı Rayon Polis Şöbəsinin əməkdaşları onun xatirəsinə qoyulmuş abidəni və ev muzeyini ziyarət edib, ailəsinə baş çəkiblər.

*Ardı 2-ci səhifədə.*

# ONLAR BİZƏ QƏLƏBƏ BƏXŞ ETDİLƏR

## *Paytaxtda və bölgələrdə anım mərasimləri keçirilir*




*Əvvəli 1-ci səhifədə.*

Qeyd edək ki, şəhid Səfəralı Məmmədov Ağdam Rayon Daxili İşlər Şöbəsində Post-Patrul Batalyonunda taqım komandiri vəzifəsində xidmət edib. O, 1992-ci il fevral ayının 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini xilas edən zaman şəhid olub.

Masallı şəhərində küçələrdən birinə və təhsil aldığı məktəbə onun adı verilib, haqqında "Qəhrəman polis" adlı sənədli film çəkilib.

Şəkidə DİN təmsilçiləri, ŞRPŞ-nin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, o cümlədən ictimaiyyət nümayəndələri və döyüş yoldaşları şəhid hərbi qulluqçu, baş çavuş Elçin Nadirovun il mərasimində iştirak ediblər.

Əvvəlcə E.Nadirovun Şəkidə Şəhidlər xiyabanındakı məzarı ziyarət olunub, üzərinə çiçəklər düzülüb və ruhuna dualar oxunub. Anım mərasimində onun şərəfli ömür yolundan, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdəki şücaətindən bəhs edilib.

Şəhid E.Nadirov Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Saatlı rayonunda da şəhid Anar Məmmədovun məzarı ziyarət edilib, xatirəsi anılıb.

Şəhidimiz ölkə rəhbərinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Keçirilən il mərasimlərində şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.



# POLİS NƏZARƏTİ GÜCLƏNDİRİB

## *Qanunun tələblərinin icrası diqqət mərkəzindədir*

**Daxili İşlər Nazirliyi tərəfindən "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanılır.**

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi və respublikanın şəhər, rayon polis orqanları tərəfindən aidiyyəti təşkilatlarla birgə qanunla tütün çəkilməsinə icazə verilməyən yerlərdə monitorinqlər keçirilir, fiziki və hüquqi şəxslər, fərdi sahibkarlar, eləcə də əhali arasında geniş izahat işləri aparılır, müvafiq qanunvericiliyin tələblərinin pozulması ilə bağlı Daxili İşlər Nazirliyinin "102 - Xidməti-Zəng Mərkəzi Sistemi"nə və www.mia.gov.az elektron saytına müraciət etmək hüququnun olması barədə vətəndaşlara, fiziki və hüquqi şəxslərə, fərdi sahibkarlara məlumat verilir.

Ümumilikdə, 2020-ci il və 2021-ci ilin 9 ayı ərzində respublikanın şəhər, rayon polis orqanları tərəfindən keçirilmiş tədbirlər nəticəsində "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunla qadağan edilmiş yerlərdə tütün çəkdiklərinə, tütün məmulatları tullantılarını ətraf mühitə atdıqlarına görə 3237, tütün məmulatlarını yetkinlik yaşına çatmayanlara satdıqlarına görə 242 şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 212.1-ci, 212.4-cü və 455.2-ci maddələrinə əsasən inzibati tənbeh tədbiri tətbiq olunub. Tətbiq edilmiş cərimələr 121.160 manat təşkil edib.

# Monitorinqlər nəticəsində...

13-19 oktyabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 549 toy şənliyinin monitorinqini həyata keçiriblər.

Monitorinqlər 426 şadlıq sarayında, 123 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

-145 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;

-1 nəfər barədə material baxılması üçün məhkəməyə göndərilib;

-1697 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

# Polis Akademiyasında tarixi görüş



**Bugünlərdə Polis Akademiyasının kursantları ilə DİN Daxili Qoşunların polkovniki, Vətən müharibəsi qazisi və Vətən Müharibəsi Qəhrəmanı Zəfər Yusibovun görüşü keçirilib.**

Tədbir ulu öndər Heydər Əliyevin və Vətən müharibəsi şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Daha sonra tədbiri açıq elan edən Polis Akademiyasının rəis müavini, polis polkovniki İlyas İsayev II Qarabağ müharibəsində müzəffər ordumuzun, o cümlədən Daxili Qoşunların hərbi qulluqçularının qəhrəmanlığından bəhs edib.

Qarabağ uğrunda Vətən müharibəsində hərbçilərimizin göstərdiyi şücaət və rəşadətdən söz açan Vətən müharibəsi qazisi Zəfər Yusibov da tarixi anları kursantlarla bölüşüb.

O, çıxışında Vətən müharibəsi dövründə xalqımızın Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşməsinin qazanılan zəfərdə mühüm rol oynadığını qeyd edərək, qanımız-canımız bahasına qazandığımız qələbənin son bir neçə yüzillikdəki tariximizə öz möhürünü vurduğunu diqqətə çatdırıb. Qarabağın azadlığı üçün mərd oğulların düşmənin mövqelərinə doğru qarlı, dumanlı, göz-gözü görməyən havalarda belə misli görünməmiş igidliklə vuruşduqlarını kursantlara danışan hərbi qulluqçumuz, üçrəngli bayrağımızın bundan sonra işğaldan azad olunmuş ərazilərdə əbədi dalğalanacağına əminliyini ifadə edib.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

*"Polis"*

**Bakı Şəhər Baş Polis İdarəsi və Xətai Rayon Polis İdarəsinin əməkdaşları 171 nömrəli tam orta məktəbin şagird və pedaqoji kollektiviylə görüş keçiriblər. "Narkomaniyaya, zərərli vərdişlərə və zorakılığa yox!" mövzusunda baş tutan tədbirdə əməkdaşlarımız əvvəlcə Birinci Qarabağ müharibəsində şəhid olmuş Zaur Məmmədovun abidəsi önünə qərənfillər düzüblər.**



# Maarifləndirmək də mübarizədir

Tədbiri giriş sözü ilə açan məktəb direktoru Zemfira Məsiyeva gənclərin təlim-tərbiyəsində məktəb, valideyn və qanun keşikçilərinin müştərək iştirak etməsinin əhəmiyyətindən danışaraq, polisin maarifləndirici işinin önəminə diqqət çəkib.

Daha sonra tədbir polis əməkdaşlarının çıxışları ilə davam edib. Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin bölmə rəisi, polis polkovniki İbrahim İsmayılov, bölmənin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova, Veteranlar Şurasının sədri Emin Məmmədov və digər çıxışçılar mövzu ilə bağlı geniş məlumat veriblər. Tədbirdə narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin ümumi vəzifə olduğu, birlikdə mücadilə ilə müsbət nəticə əldə etməyin mümkünlüyü izah edilib. Xüsusən yeniyetmələri, gəncləri hədəf alan, ilk mərhələdə spirtli içki qəbul etmək, siqaret çəkmək, dərsdən yayınma kimi zərərli vərdişlərlə başlayan narkotik vasitələrdən asılılığın ciddi sağlamlıq problemləri yaratdığı, hətta ağır cinayət hadisələrinin törədilməsinə səbəb olduğu faktlar əsasında şagirdlərin diqqətinə çatdırılıb.

Məktəbin müəllimləri, şagirdlər də mövzu ətrafında çıxış edib, fikirlərini bildiriblər. Polis əməkdaşları onları maraqlandıran suallara cavablandırıblar.

Sonda məktəbdə yaradılmış "Zəfər güşəsi" ilə tanış olan əməkdaşlarımız şagirdlərin çəkdikləri rəsmlərə baxış keçiriblər.

*R.Mehtiyev*

# ÖLÜMƏ QƏNŞƏR GEDƏNLƏR

## *Həyatını riskə atanları polis xilas edir*




Minalardan və digər partlayıcı vasitələrdən tam təmizlənməmiş ərazilərə nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərənlərin qarşısının alınması istiqamətində polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər keçirilir.

Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş Çaylı kəndinə gizli yollarla daxil olmaq istəyən şəxs, rayonun Hacıqərvənd kənd sakini Telman Yusibov saxlanılıb. Araşdırmalar zamanı onun balıq ovlamaq məqsədi ilə Çaylı kəndinin ərazisindən keçərək Suqovuşan kəndinə daxil olmaq istədiyi müəyyən edilib.

T.Yusibov barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib olunaraq rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə T.Yusibov 10 gün müddətinə inzibati qaydada həbs edilib.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# ELAN

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcək.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2021-ci ilin oktyabr ayının 18-dən noyabr ayının 18-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

***Əlavə məlumat üçün əlaqə telefonları: (012) 590-80-66; (012) 590-93-64 şəhər 13-64; 80-66 daxili***

**Daxili İşlər Nazirliyi**

# RAYONLARDAN QEYDLƏR...

## *DİN əməkdaşları bir neçə rayonda görüş keçiriblər*





***"Uğur Gənclər" təşkilatının təşəbbüsü ilə polis əməkdaşları müharibə ərəfəsində cəbhə zonasına yaxın yerləşən rayonların şagirdləri və şəhid ailələrilə görüşüblər.*** Şəhid ailələrinə qayğı, gənclərin maarifləndirilməsi, zərərli vərdişlərdən qorunmaları və yaradıcı potensiallarının üzə çıxarılması məqsədi ilə keçirilən tədbirlərdə DİN əməkdaşları, qazilər, yerli ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ötən ilin oktyabrın 28-də düşmənin Bərdəni raket atəşinə tutması nəticəsində həyatını itirən Vasif İsmayıllının ailəsində qonaq olan **DİN Mətbut Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov** şəhidin ailəsinə səbr diləyərək, Vətən müharibəsində canını qurban verən hər bir şəhidin xatirəsinin qəlbimizdə və tariximizdə əbədi yaşayacağını bildirib. Cəbhədə ağır məğlubiyyətə düçar olduğunu görən düşmənin yaşayış məskənlərimizi atəşə tutmasını insanlığa qarşı yönəldiyini və müharibə cinayəti olduğunu qeyd edən rəis müavini müharibədə zərər çəkənlərin, şəhid ailələrinin, qazilərin dövlətin qayğısı ilə əhatə olunduğunu, polisin də onlara hər zaman xüsusi ehtiramla yanaşdığını deyib.

Şəhidin anası Arzu İsmayıllı oğlunun qanlı terror hadisəsində, həyat yoldaşının isə Birinci Qarabağ müharibəsində şəhid olmasını qismətinə kədərli tale kimi yazıldığını, Qarabağın işğaldan azad olunmasının isə bütün ağrı-acısına təsəlli olduğunu vurğulayıb.



***Birinci Qarabağ müharibəsində şəhid olmuş polis əməkdaşı Polad Ərəbovun da ailəsinə Tərtər RPŞ-nin əməkdaşları ilə birgə baş çəkilib, şəhidimizin bulaq kompleksi ziyarət olunub.***

Polis starşinası P.Ərəbovun müharibədə göstərdiyi qəhrəmanlıqlardan söz açan tədbir iştirakçıları onun ilk günlərdən başlayaraq Ağdərə RPŞ-nin əməkdaşları sırasında erməni quldurlarına qarşı döyüşməsindən, Ağdam rayonunun Papravənd, Gülablı, Mərzili, Qazançı, Qarağacı kəndlərində gedən döyüşlərdəki fədakarlıqlarından söz açıblar. Döyüşdən döyüşə, səngərdən səngərə atılan P.Ərəbov Ağdərə yaxınlığında gedən döyüşlərdə şəhid olub.

Ailə üzvləri şəhidimizin qəhrəmanlığının onlarda qürur, iftixar doğurduğunu və Vətən müharibəsində qazanılan Zəfərlə hər bir şəhidin qisasının alındığını bildiriblər.

***Tədbirlər çərçivəsində Bərdə şəhəri 866 saylı məcburi köçkün qəsəbəsində yerləşən Ağdam 1 saylı və Tərtər rayonu şəhid Rafiq Nuriyev adına 6 saylı tam orta məktəblərdə də şagirdlərlə görüş keçirilib.***

Gənclər qarşısında çıxış edən polis polkovnik-leytenantı H.Təmirov narkotik vasitələrin zərərlərindən danışıb, belə vasitələrdən istifadə edənlərin özlərini cəmiyyətdən təcrid etdiklərini, kimliyindən asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükə yaratdığını izah edib. Narkomaniyanın cinayətkarlıq, zorakılıq kimi hallarla müşayiət edildiyini bildirən natiq, sağlam gəncliyin qorunmasının əhəmiyyətinə toxunaraq, Vətən müharibəsində Qarabağın məhz fiziki və mənəvi cəhətdən sağlam hərbçilərimizin sayəsində azad olunduğunu xatırladıb.

Fikir mübadiləsi şəklində baş tutan tədbirlərdə gənclərin suallarını cavablandıran H.Təmirov sonda şagirdlərə öz kitablarını hədiyyə edib.

*Rəşad Mehtiyev, polis baş serjantı*

# Dünya təcrübəsini bölüşürük

## *Əməkdaşlarımız "TOPCOP" layihəsi çərçivəsində seminarda iştirak ediblər*




Xarici dövlətlərin hüquq mühafizə orqanları və müvafiq beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin yaradılması transmilli cinayətkarlıqla mübarizəyə, eləcə də sabitliyin qorunub saxlanılmasına töhfə verir. Azərbaycan Daxili İşlər Nazirliyi bu baxımdan əməkdaşlığın genişləndirilməsini, nəzəri-praktiki təcrübə mübadiləsinin aparılmasını hər zaman diqqət mərkəzində saxlayır.

Beynəlxalq tədbirlərdə, elmi-praktiki konfranslarda iştirak edən əməkdaşlarımız müasir dünya təcrübəsini öyrənməklə yanaşı, müvafiq sahələr üzrə sahib olduqları təcrübəni tərəfdaşlarına çatdırırlar. Bu münasibətlər ölkəmizdə keçirilən beynəlxalq tədbirlər zamanı təhlükəsizliyin təmin edilməsində işbirliyi imkanlarını da artırır ki, ötən dövrlərdə bunun şahidi olmuşuq.

Təcrübə mübadiləsi xarakteri daşıyan növbəti tədbir oktyabrın 19-21 tarixlərində Budapeşt şəhərində keçirilib. Hüquq mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyi tərəfindən (CEPOL) icra edilən "TOPCOP" layihəsi çərçivəsində "Avropa İttifaqının cinayətkarlıq təhdidlərinə qarşı dövri metodologiya sənədi" adlı seminarda DİN Polis Akademiyasının, DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin və digər hüquq mühafizə orqanlarının əməkdaşları iştirak ediblər.

*M.Rəşad*

# Düşməndən qalan "miras"

## *Polis azad edilmiş ərazilərdə profilaktik nəzarət tədbirlərini davam etdirir*



**İşğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı vasitələrdən təmizlənməsi, düşmənin qaçarkən atdığı silah-sursatın tapılıb aidiyyəti üzrə təhvil verilməsi istiqamətində intensiv tədbirlər görülür.**

Son günlər keçirilən profilaktik nəzarət tədbirləri nəticəsində Xocavənd rayonu ərazisində düşmənin tərk etdiyi hərbi mövqelərdən növbəti dəfə xeyli sayda döyüş sursatları aşkar edilib. Belə ki, Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları rayonun Məmməddərə kəndi ərazisində 28 qəlpəli top, 73 tank mərmisi və onlara aid 64 ədəd partladıcı hissəsi götürərək aidiyyəti üzrə təhvil veriblər.

Profilaktik nəzarət tədbirlərini davam etdirən Xocavənd RPŞ-nin əməkdaşları işğaldan azad edilmiş ərazilərə icazəsiz daxil olan şəxsləri də saxlayıblar.

Rayonun Binə kəndi ərazisində təyin edilən nəzarət postunda Göygöl rayon sakini Ariz Abdullayevin idarə etdiyi "Kamaz" markalı avtomobil prosedur qaydasına uyğun olaraq saxlanılıb. Yoxlama zamanı A.Abdullayevin sərnişinləri - Göygöl rayon sakini Qürbət Qocayev və Orxan Paşayev ilə birgə müvafiq icazələri olmadan rayon ərazisinə daxil olduqları müəyyən edilib.

Həmçinin avtomobilin yük yerinə baxış zamanı əlvan metallar da aşkar edilərək götürülüb.

Növbəti şəxs isə işğaldan azad edilmiş ərazilərə narkotik keçirmək istəyərkən tutulub. Hadrut qəsəbəsinin ərazisində yaradılan stasionar postda Yevlax rayon sakini Xəyal Babayevin idarə etdiyi "VAZ" markalı avtomobilə baxış keçirən polis əməkdaşları narkotik vasitə olan marixuana aşkar edərək götürüblər.

Faktlarla bağlı araşdırmalar aparılır.

*"Polis"*

# Vətəndaş məmnunluğu üçün...



**Vətəndaş məmnunluğu, cinayətkarlığa qarşı qətiyyətli mübarizə, ictimai asayişin və təhlükəsizliyin təmini daxili işlər orqanlarının fəaliyyətinin təməl prinsipidir.**

Bu istiqamətdə görülən işlərdə Nəqliyyatda Baş Polis İdarəsinin və onun struktur hissələrinin də özünəməxsus rolu və yeri var. Onlar dəmir yolu, hava və su nəqliyyatında vətəndaşların rahat, maneəsiz və təhlükəsiz hərəkətinin təminatçılarıdır...

Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinə gedişimin səbəbi isə vətəndaş Anar Pənahovun DİN-ə ünvanladığı təşəkkür məktubu idi.

DYNPİ-nin şəxsi heyəti təhkim olunmuş ərazilərdə post-patrul və əməliyyat xidmətlərini həyata keçirirlər. Giriş-çıxışlarda, bilet kassalarının qarşısında karantin qaydalarına riayət olunmasına nəzarət, yük qatarlarının ölkədaxili, eləcə də sərnişinlərin



Bakı ətrafı daşınmalarının təhlükəsizliyinin təmin edilməsi də onların funksional vəzifələrinə aiddir. Dəmir yolu strateji əhəmiyyət kəsb etdiyi üçün xidmətə cəlb olunan əməkdaşların ikiqat məsuliyyətli olmaları, ayıq-sayıq xidmət aparmaları vacib amildir. Bu nöqteyi-nəzərdən hər səhər xidmət öncəsi əməkdaşlar təlimatlandırılır və daha diqqətli olmaları tövsiyə olunur.

Sözügedən məktuba gəlincə, DYNPİ-nin Sərnişin Qatarlarının Müşayiəti üzrə Post-Patrul Xidməti Bölüyünün əməkdaşı, polis baş serjantı Məhəmməd Əhmədov Dəmir Yolu Vağzalında fəaliyyət göstərən "Asan Kommunal" xidmətinin gözləmə zalının skamyasında mobil telefon aşkar edib. Sahibinin müəyyənləşdirilməsi istiqamətində işə başlayan həmkarımız bir neçə dəqiqədən sonra vətəndaş A.Pənahova mobil telefonu təqdim edib.

*T.Əlizadə*




# Peşəkarlıq olan yerdə...

"Müraciətlərə həssaslıq yanaşmaq, operativliyi, şəffaflığı təmin etmək polisin həm vəzifə, həm də mənəvi borcudur. Polis ədalətin bərqərar olması üçün xidməti fəaliyyətində dürüstlük, vicdanlılıq, bitərəflik nümayiş etdirməli, qərəzsiz olmalı, mövcud qanunvericiliyin tələblərini rəhbər tutmalıdır".

Bu fikirləri **Nərimanov Rayon Polis İdarəsi rəisinin əməliyyat işləri üzrə müavini, polis polkovnik-leytenantı Hikmət Vəliyev** söhbət əsnasında səsləndirdi. Deyilənlərə misal olaraq bugünlərdə Vətən müharibəsi qazisi, II qrup əlil Ruslan Məmmədovun müraciətindən söz açan İdarə rəisinin müavini bildirdi ki, iddiaçının keçmiş iş yoldaşı Rəsul adlı şəxs tərəfindən döyülməsi faktı ilə bağlı araşdırmalara başlanılıb. Müəyyən olunub ki, II qrup əlil R.Məmmədov əvvəllər işlədiyi "Spark" beton zavodunda əmək kitabçasının ona verilməsi ilə əlaqədar müraciət edib. Kitabçanın gecikdirildiyini hesab edən Ruslan zavoda gələrək Rəsulla görüşüb. Aralarındakı mübahisə də burada yaşanıb. Ərazidəki müşahidə kameralarının köməyi ilə məsələyə aydınlıq gətirilib. Vətən müharibəsi qazisinin iddia etdiyi kimi, onun zavod əməkdaşı tərəfindən döyülməsi faktı aşkar olunmayıb.

Rəis müavini tərəflərin İdarəyə dəvət olunduğunu, məsələnin qanun çərçivəsində həll edildiyini vurğuladı.

Hər zaman çevikliyi, operativliyi, eləcə də peşəkarlığı ilə öndə olan Azərbaycan Polisi vətəndaşların ona olan inam və etibarını doğrultmaqdadır. Bir neçə gün öncə təhkim olunmuş ərazidə xidmət aparan RPİ-nin 17-ci Polis Şöbəsinin əməkdaşlarının köməksiz vəziyyətdə qalan azyaşlının həyatını xilas etməsi də bunun bariz nümunəsidir.

Hadisə barədə "Polis"in suallarını cavablandıran **şöbə rəisi, polis polkovnik-leytenantı Azər Məmmədovun** sözlərinə görə, inzibati ərazidə xidmət aparan əməkdaşlar bir azyaşlının təlaş içində ətrafdakılara baxmasını müşahidə ediblər. Nə baş verdiyini öyrənmək üçün azyaşlıya yaxınlaşıblar. Bəlli olub ki, "Zəfəran Hospital"-da tibb bacısı işləyən anası onu özü ilə işə gətirib. Lakin ananın diqqətindən yayınan uşaq Hospitalın həyətinə çıxıb və gəzə-gəzə oradan 2-3 kilometr məsafədə aralanıb. Onun valideynlərinin müəyyən edilməsi istiqamətində əməkdaşlar dərhal işə başlayıblar. Çox keçməmiş valideynlər şöbəyə dəvət olunub və uşaq ailəsinə təhvil verilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Alkotester: polisin köməkçisi

Yol polisi əməkdaşları tərəfindən nəqliyyat vasitəsi sürücüsünün spirtli içkidən istifadəsinin müəyyən edilməsi məqsədilə tətbiq edilən alkotester cihazının yaradılmasının maraqlı tarixçəsi var.

İlk alkotester cihazı təxminən yüz il əvvəl icad edilmişdir. Həmin cihaz yalnız qanda spirtin mövcudluğunu göstərirdi, amma miqdarını təyin edə bilmirdi. O zaman yol polisi əməkdaşlarının sayı az olmaqla yanaşı, sərxoş sürücülərin aşkarlanması üsulları çox sadə idi: ağızdan spirt iyisinin gəlməsi və sürücünün düz bir xətt üzərində gəzə bilməsi.

Roll Xarqer tərəfindən icad edilən cihaz, ümumi iş prinsipində müasir nəfəsalma alkotesterinə bənzəyirdi. Sürücü üfürən zaman boruya bağlanan kürəcik nəfəsdə olan spirt buxarlarının təsirindən intensiv formada rəngini dəyişərdi. 1938-ci ildə İndiana polisi cihazı rəsmi olaraq təsdiqlədi və müntəzəm olaraq yol polisi əməkdaşları xidmətdə istifadə etməyə başladı. Test təxminən on dəqiqə çəkirdi və həcmli olduğundan daha çox kiçik laboratoriyaya bənzəyirdi.






İlk "tənəffüs borusu" 1953-cü ildə Alman şirkəti "Drager" tərəfindən patentləşdirildi. Cihaz təhlükəli istehsal müəssisələrində ayıqlığın dərəcəsini və sürücüləri səfərdən qabaq yoxlamaq üçün nəzərdə tutulmuşdu.

Əgər sürücü həmin üsulla sərxoşluğun müayinəsindən imtina edirdisə, yaxud həmin vasitələrin sərxoşluğun olmasına dair göstəricilərini qəbul etmirdisə, o zaman məcburi qaydada tibbi müayinədən keçirilirdi.

Qanda alkoqolun konsentrasiyasının 0,3 promille və daha artıq olması alkoqol sərxoşluğu kimi başa düşülür. Beləliklə, sürücünün qanında 0,3 qram və ya daha artıq təmiz etil spirti aşkar olunursa, o, sərxoş sayılır.

Bəzi ölkələrdə məsələn, Boliviya, Honduras, Ekvadorda - 0,7 promilleyə qədər icazə verilir. İngiltərədə, Sinqapurda və ABŞ-ın bəzi əyalətlərində isə ümumiyyətlə 0,8 promille təşkil edir. Paraqvayda yol hərəkəti qaydalarına gəldikdə, hətta cihazın ekranında 0,8 promille cinayət məsuliyyəti yaradır.

Mütəxəssislər hesab edir ki, az miqdarda belə spirtli içki qəbul edən sürücünün şüurunda qlobal dəyişiklik hiss olunmasa da, sinir mərkəzləri normal fəaliyyətini dayandırır və bu sürücülər üçün son dərəcə təhlükəli vəziyyətdir. Bu halda qəza törətmək ehtimalı 14 dəfə artır.

Yeri gəlmişkən, Azərbaycanda İXMnin 333.1 maddəsi ilə nəqliyyat vasitəsini sərxoş vəziyyətdə və ya narkotik vasitələrin, psixotrop maddələrin təsiri altında idarə edən şəxs dörd yüz manat cərimə olunur. Və ya onun nəqliyyat vasitələrini idarə etmə hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılır.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Azadlığın 1 ilində...

## Həyatını riskə atsa da, polisin fəaliyyəti rəğbət doğurur

**Vətən müharibəsində zəfər qazanmağımızın 1 ili tamam olur. Tariximizə yazılan 44 səhifəlik hünər dastanının hər günü parlaq qələbələrimizlə zəngindir. Vətən müharibəsinin 21-ci günü – oktyabrın 17-də Füzuli rayonu Silahlı Qüvvələrimiz tərəfindən düşmən işğalından azad edildi.**



Ötən müddət ərzində Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayon ərazisində zəruri olan bütün tədbirlər yerinə yetirilib, təhlükəsizliyin təmin edilməsi istiqamətində lazımi işlər görülüb.



İşğaldan azad edilən zaman düşmənin atıb qaçdığı silah-sursatların aşkar edilməsi istiqamətində görülən tədbirlər nəticəsində polis əməkdaşları tərəfindən 38 müxtəlif təyinatlı raket sistemləri, 39 avtomat, 9 pulemyot, 14 qumbaraatan, 118 qumbara, minaatan qurğusu, xeyli sayda müxtəlif çaplı mərmi və minlərlə güllələr aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

Bundan başqa keçirilmiş kompleks tədbirlər nəticəsində işğaldan azad edilmiş Qacar kəndi ərazisində yabanı halda bitmiş çəkisi 217 kiloqram olan 1263 ədəd çətənə bitkiləri yığılaraq məhv edilib.

# Koronavirus xəstələri saxlanılıb



Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanları əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Oktyabrın 13-dən 19-dək olan müddətdə polis əməkdaşları tərəfindən 10 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 2 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.




**BNMİ əməkdaşlarının** keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini İ.Babayev Xətai rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 800 qram heroin, 27 qram metamfetamin, 2 ədəd bankomat kartı aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı isə oradan əlavə 390 qram heroin, 30 ədəd metadon həbi və elektron tərəzi götürülmüşdür.

◆◆◆

**Sumqayıt ŞPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Ə.Fərzəliyevanın üzərindən və yaşadığı evə baxış zamanı 91 qrama yaxın heroin, 12 qrama yaxın metamfetamin və elektron tərəzi aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nizami RPİ 24-cü PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 11-də Bakı şəhər sakini A.Musayevin mobil telefonunu soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş S.Əliyev saxlanılmışdır.

◆◆◆

**Binəqədi RPİ 43-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 28-də "London Taxi" markalı avtomobilin dövlət qeydiyyat nişanlarını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.Hüseynov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilmişdir.

Ətrafında aparılmış tədbirlərlə onun Yasamal RPİ tərəfindən borclu qismində axtarışda olması da müəyyən olunmuşdur. Oğurladığı dövlət qeydiyyat nişanları isə idarə etdiyi "Tofaş" markalı avtomobilin üzərində aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Xəzər RPİ 1-ci PŞ və Əlahiddə Çevik Polis Alayı** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Şüvəlan qəsəbə sakini, əvvəllər məhkum olunmuş V.Səfərovdan heroin, marixuana, metamfetamin və 25 ədəd psixotrop həb aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Sumqayıt ŞPİ 3-cü PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan şəhər sakini, əvvəllər məhkum olunmuş N.Qayıbovun üzərindən heroin və metamfetamin, yaşadığı evə baxış zamanı isə 198 qrama yaxın heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Sumqayıt ŞPİ-nin 1-ci Polis Bölməsinə** müraciət edən Abşeron rayon sakini Ş.Teymurov oktyabrın 17-də Novxanı bağlar sahəsində idarə etdiyi "Mercedes" markalı avtomobilində olan şərnişinin onu bıçaqla hədələyib 60 manat pulunu aldığını bildirmişdir.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 180-ci (soyğunçuluq) maddəsi ilə cinayət işi başlanmışdır.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş R.İsgəndərov müəyyən edilərək saxlanılmışdır.

*Natiq Cavadov*

## Oktyabr ayının 13-dən 19-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 264 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 37 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 417, o cümlədən borclu şəxs qismində axtarışda olan 308 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 21 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 24 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 162 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik